**DÖVRAN**

Kaş sənlə keçən günlərimi qaytara dövran,
Sənsiz sinəmə gör necə vurmuş yara dövran.
Zənn eylər idim, bəxtimizə gün doğacaqdır,
Gör hardan alıb saldı səni bir hara dövran...

Hey yollara baxdıqca gözüm doldu, boşaldı,
Hicran sitəmiylə səni saldı tora dövran,
Əhd etmiş idim, munisimiz ilk bahar olsun,
Etdi necə qismət gülümü yadlara dövran.

Eylər ikən hər kəslə müdara soruşun bir:
Təkcə məni neyçün gətiribdir zara dövran?
Gülgün, bilirəm, dözməyə var səndə dəyanət,
Vursa yara üstündən əgər min yara dövran!



Mədinə GÜLGÜN

